**AZƏRBAYCAN RESPUBLIKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№388/8** **01 iyul 2026-cı il**

# Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan Republikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Azərbaycan Republikası Prezidentinin 2016-cı il 15 mart tarixli 176-VQ saylı Fərmanı ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununu, habelə Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ı rəhbər tutaraq və Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyanın qüvvədə olma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahanlar üçün imtahan haqlarının məbləği barədə" 2001-ci il 17 may tarixli 75/4 nömrəli qərarına əsasən Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.6-cı bəndinə uyğun olaraq ixtisasartırma kurslarında hər il iştirak edən və bu kursları müvəffəqiyyətlə bitirən, habelə digər tədbirlərdə fəal iştirak etmiş auditorların imtahanından (2026-cı il 17 iyul tarixində), imtahan haqqı ödənilməsindən azad olunması və onlara növbəti beş il müddətinə yeni icazənin verilməsi məqsədəuyğun hesab edilsin (1 saylı siyahı əlavə olunur).
2. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.5-ci bəndinə uyğun olaraq ixtisasartırma kurslarında hər il iştirak edən və üç ildən az olmamaq şərtilə bu kursları müvəffəqiyyətlə bitirən auditorların icazələrinin qüvvədə olma müddətinin başa çatması ilə bağlı auditor adı almaq üçün keçiriləcək imtahanda (2026-cı il 17 iyul tarixində) müəyyən olunan ödənişi ödəmədən iştirakı məqsədəuyğun hesab edilsin (2 saylı siyahı əlavə olunur).
3. Auditorlar Palatası Şurasının 2019-cu il 03 may tarixli 310/6 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydalar"ın 9.4-cü bəndinə uyğun olaraq ixtisasartırma kurslarının nəzərdə tutulan həcmində qismən iştirak edən auditorların icazələrinin qüvvədə olma müddətinin başa çatması ilə bağlı auditor adı almaq üçün keçiriləcək imtahanda (2026-cı il 17 iyul tarixində) ümumi qaydada iştirakı məqsədəuyğun hesab edilsin (3 saylı siyahı əlavə olunur).
4. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) və İmtahan Komissiyasına (C.Həsənov) tapşırılsın ki, bu qərarın icrası ilə əlaqədar müvafıq tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.
5. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva), Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, ölkədə auditor fəaliyyəti ilə məşğul olmaq üçün icazələr qəbul olunmuş qaydada andiçmə mərasimi təşkil edilməklə auditorlara təqdim edilsin.
6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**